**Əflatun SARACLI**

# *Kamal dünyasının Kamalı...*

*Akademik Kamal Talıbzadənin doğum gününün 75 ili*

*Həyatda işıqlı, ünlü yol keçdin,*
*Bir ata arzusu, amalı oldun.*
*Şaiq dünyasının nurundan içdin,*
*Kamal dünyasının Kamalı oldun.*

*Oğullar bəxş edib obaya, elə*
*Süleyman soyundan Talıbzadələr.*
*Belə bir sağlığa min il də hələ*
*Boşalar badələr, dolar badələr.*

*Kökünə, soyuna bağlısan sən də,*
*Həm müdrik, inamlı, həm sadə, kövrək.*
*Allahım, beləcə kiçik bədəndə*
*Hardandır dağ boyda böyük bir ürək?!*

*Müdriklik Nizami, Fizulilərdən,*
*Sadəlik Şaiqdən, Səməddən gəlir.*
*Təpədən dırnağa Borçalısan sən,*
*Amalın, əməlin necə tən gəlir.*

*Bizlərə örnəkdir işin, hünərin,*
*Kim alqış diləməz belə uluya?!*
*Yayılıb türksoylu tələbələrin*
*Sibirdən Altaya, Anadoluya.*

*Çatıbsan, ay ustad, şöhrətə, ada,*
*Ancaq irəlidə hələ nələr var.*
*Qocala bilməzsən yüz yaşında da,*
*Hələ nəvələr var, nəticələr var.*

*Dönübsən canlıca tariximizə,*
*Tarix öyrədirsən, tarix yazırsan.*
*Daşdan keçən olur möhürün sözə,*
*Alimə meyarsan, elmə mizansan.*

*Yolunu gözləyir Borçalı, Dərbənd,*
*Nələr görəcəyik hələ cahanda...*
*Yüzə hazırlaşsın hər oba, hər kənd*
*O taylı, bu taylı Azərbaycanda...*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 12 avqust.- S. 24.